# Gömrük tarifi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən (bundan sonra - gömrük sərhədi) keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən edir.

## *Fəsil 1*
## Ümumi müddəalar

### Maddə 1. **Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. gömrük tarifi - gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusu;

1.1.2. gömrük rüsumları - malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması zamanı gömrük orqanları tərəfindən alınan gömrük ödənişlərinin bir növü;

1.1.3. xarici iqtisadi fəaliyyətin mal nomenklaturası – müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən, malların qrupunu, mövqeyini, yardımçı mövqeyini, alt yardımçı mövqeyini rəqəm işarəsi və ya rəqəm işarələri qrupu (kodlar) şəklində özündə birləşdirən təsnifatdır;

1.1.4. tarif kvotası - idxal edilən ayrı-ayrı malların müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş miqdarına (dəyərinə) qanunvericilikdə nəzərdə tutulduğundan daha aşağı idxal gömrük rüsumunun və həmin miqdardan (dəyərdən) artıq olan hissəsinə daha yüksək idxal gömrük rüsumunun tətbiqini nəzərdə tutan müddətli tənzimlənmə üsulu;

1.1.5. malların gömrük dəyəri - advalor gömrük rüsumu dərəcəsinin tətbiqi məqsədi ilə malların dəyərinin müəyyən edilməsi;

1.1.6. eyni mallar - fiziki xassələri (malların dəyərinə təsir etməyən kiçik fərqlər istisna olmaqla), keyfiyyəti, həmçinin bazardakı nüfuzu da daxil olmaqla, bütün xüsusiyyətləri eyni olan mallar;

1.1.7. eynicinsli mallar - bütün cəhətlərinə görə oxşar olmasa da, eyni funksiyaları yerinə yetirilməsini və kommersiya baxımından bir-biri ilə əvəz olunmasını mümkün edən oxşar xüsusiyyətləri və oxşar tərkib materialları olan mallar. Malların keyfiyyəti, bazardakı nüfuzu və əmtəə nişanının olması onların eynicinsliliyinin müəyyən edilməsi üçün nəzərə alınan amillərdəndir;

1.1.8. eyni sinifdən və ya eyni növdən olan mallar - eyni və ya eynicinsli malların da daxil olduğu müəyyən mallar qrupunu və ya mövqeyini əhatə edən hər hansı bir sənaye sahəsi və ya sektorunun istehsal etdiyi mallar;

1.1.9. istehsal - yetişdirmə, hazırlama, hasil etmə;

1.1.10. birbaşa nəzarət - mənfəət əldə etmək üçün müəssisənin əməliyyat və maliyyə siyasətini idarə etmək səlahiyyəti;

1.1.11. dolayı nəzarət - mənfəət əldə etmək üçün müəssisənin maliyyə və əməliyyat siyasəti ilə bağlı qərarların verilməsinə əhəmiyyətli təsir göstərən, lakin həmin siyasət üzərində birbaşa nəzarəti təmin etməyən səlahiyyət;

1.1.12. alıcı - Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan malları alan şəxs;

1.1.13. satıcı – malları Azərbaycan Respublikasına ixrac məqsədi ilə satan şəxs;

1.1.14. faktiki ödənilmiş və ya ödənilməli olan qiymət – idxal edilən mallara görə alıcının satıcı üçün və ya onun xeyrinə həyata keçirdiyi və ya həyata keçirməli olduğu tam ödəniş;

1.1.15. əlaqəli şəxslər - sövdələşmə iştirakçıları yalnız aşağıdakı hallarda əlaqəli şəxslər hesab edilirlər:

1.1.15.1. onlardan biri digərinin biznesində vəzifəli şəxs olduqda;

1.1.15.2. onlar biznesdə tərəfdaş olduqda;

1.1.15.3. onlar bir-birinə münasibətdə işəgötürən və işçi olduqda;

1.1.15.4. hər hansı şəxs onların hər ikisinin nizamnamə kapitalındakı payının və ya dövriyyəyə buraxılmış səs hüququ verən səhmlərinin ən azı 5 (beş) faizinin birbaşa və ya dolayı yolla sahibi olduqda;

1.1.15.5. onlardan biri birbaşa və ya dolayı yolla digərinə nəzarət etdikdə;

1.1.15.6. onların hər ikisinə birbaşa və ya dolayı yolla üçüncü şəxs tərəfindən nəzarət edildikdə;

1.1.15.7. onlar birlikdə birbaşa və ya dolayı yolla üçüncü şəxsə nəzarət etdikdə;

1.1.15.8. onlar yaxın qohum olduqda;

1.1.15.9. işgüzar fəaliyyətdə bir-biri ilə bağlı olan şəxslərdən biri digərinin yeganə nümayəndəsi, yeganə distribüteri və ya yeganə konsessioneri olduqda, bunun təqdim edilməsi formasından asılı olmayaraq, onlar yuxarıda göstərilən asılılıq meyarlarına uyğun gəldikdə;

1.1.16. yaxın qohum – ata, ana, ər (arvad), övlad, baba, nənə, nəvə, qardaş, bacı, övladlığa götürən, övladlığa götürülən, ərin (arvadın) valideyni, qardaşı, bacısı.

1.2. Eyni və ya eynicinsli malların eyni şəxs tərəfindən istehsal edildiyi hallar müəyyən edilmədikdə, müxtəlif şəxslər tərəfindən istehsal olunan və gömrük dəyərləndirilməsi məqsədi ilə müqayisə edilən mallar eyni və ya eynicinsli mallar kimi nəzərdən keçirilir.

1.3. Gömrük dəyərləndirilməsi məqsədi ilə müqayisə edilən mallar eyni ölkədə istehsal edilməmişdirsə, eyni və ya eynicinsli mallar kimi nəzərdən keçirilə bilməz.

1.4. Mallar üzərində aparılan layihələndirmə, mühəndis, təcrübi-konstruktor, bədii tərtibat, çertyoj və eskiz işləri gömrük ərazisində yerinə yetirilmişdirsə və bu Qanunun 13.2.2.4-cü maddəsinə əsasən müvafiq qiymət tənzimlənməsi aparılmamışdırsa, belə mallar eyni və ya eynicinsli mallar hesab edilə bilməz.

1.5. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (bundan sonra -

Gömrük Məcəlləsi) həmin anlayışlara verilmiş mənaları ifadə edir.

Maddə 2. **Gömrük tarifinin əsas məqsədləri**

2.1. Gömrük tarifinin əsas məqsədləri aşağıdakılardır:
2.1.1. idxalın əmtəə strukturunu tənzimləmək;
2.1.2. malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin və bu ərazidən aparılmasının, habelə valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;
2.1.3. Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;
2.1.4. Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;
2.1.5. Azərbaycan Respublikasının iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına şərait yaratmaq.
2.2. Bu Qanunun tətbiq sahəsi Azərbaycan Respublikasının gömrük ərazisidir.

Maddə 3. **Gömrük rüsumları və onların dərəcələrinin müəyyən edilməsi qaydaları**

3.1. Azərbaycan Respublikasında idxal gömrük rüsumları və bəzi mallara ixrac gömrük rüsumları tətbiq edilir.
3.2. İdxal gömrük rüsumlarının dərəcələrini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
3.3. İxrac gömrük rüsumlarının dərəcələrini və onların tətbiq olunduğu malların siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.
3.4. Bu Qanunun 5-ci və 6-cı maddələrində nəzərdə tutulmuş hallarda mövsümi, xüsusi, antidempinq və ya kompensasiya rüsumları tətbiq edilə bilər.
3.5. Gömrük rüsumları üzrə gömrük borcunun məbləği hesablanarkən Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mal nomenklaturasında əks olunmuş ölçü vahidi və gömrük dəyəri əsas götürülür.
3.6. Bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, gömrük rüsumunun dərəcələri gömrük sərhədindən malları keçirən hüquqi və fiziki şəxslərdən, sövdələşmə növündən və digər amillərdən asılı olaraq dəyişdirilə bilməz.
3.7. Gömrük rüsumu dövlət büdcəsinə mədaxil edilir.

Maddə 4. **Gömrük rüsumu dərəcələrinin növləri**

4.1. Azərbaycan Respublikasında gömrük rüsumu dərəcələrinin aşağıdakı növləri tətbiq edilir:
4.1.1. advalor - malların gömrük dəyərinə nisbətən faizlə hesablanan;
4.1.2. spesifik - mal vahidinə görə müəyyən olunmuş məbləğlə hesablanan;
4.1.3. kombinə edilmiş - yuxarıda göstərilən hər iki növün birləşdirilməsi yolu ilə hesablanan.

Maddə 5. **Mövsümi rüsumlar**

Malların ixracını və idxalını operativ tənzimləmək məqsədi ilə bəzi mallara dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən mövsümi rüsumlar tətbiq oluna bilər. Bu halda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumu dərəcələri tətbiq edilmir. Mövsümi rüsumların qüvvədə olduğu müddət bir ildə 6 (altı) aydan çox ola bilməz.

Maddə 6. **Xüsusi, antidempinq və kompensasiya rüsumları**

6.1. Azərbaycan Respublikasının iqtisadi maraqlarını qorumaq məqsədi ilə Azərbaycan Respublikasının gömrük ərazisinə (bundan sonra - gömrük ərazisi) idxal edilən mallara müvəqqəti olaraq gömrük rüsumlarının aşağıdakı növləri tətbiq oluna bilər:
6.1.1. xüsusi rüsumlar;
6.1.2. antidempinq rüsumları;
6.1.3. kompensasiya rüsumları.
*6.2. Xüsusi rüsumlar malın gömrük ərazisinə idxalının artmış həcmi və şərtləri yerli istehsal sahəsinə ciddi zərər vurduqda və ya ciddi zərər vurmaq təhlükəsi yaratdıqda tətbiq edilir.*
*6.3. Antidempinq rüsumları malın normal dəyərindən aşağı qiymətə gömrük ərazisinə idxal edilməsi yerli istehsal sahəsinə maddi zərər vurduqda, yerli istehsal sahəsinə maddi zərər vurmaq təhlükəsi yaratdıqda və ya yerli istehsal sahəsinin yaradılmasının mühüm dərəcədə ləngiməsinə səbəb olduqda tətbiq edilir.*
*6.4. Kompensasiya rüsumları istehsalı, ixracı və ya daşınması zamanı xarici dövlətin spesifik subsidiyasının istifadə olunduğu malın gömrük ərazisinə idxalı yerli istehsal sahəsinə maddi zərər vurduqda, yerli istehsal sahəsinə maddi zərər vurmaq təhlükəsi yaratdıqda və ya yerli istehsal sahəsinin yaradılmasının mühüm dərəcədə ləngiməsinə səbəb olduqda tətbiq edilir.*[1]
6.5. Xüsusi, antidempinq və ya kompensasiya rüsumlarının formalaşdırılması və tətbiqi qaydası *"Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə* müəyyən olunur.[2]

*Fəsil 2*
**Malın gömrük dəyəri**

Maddə 7. **Gömrük dəyərinin müəyyən edilməsi**

7.1. Malın gömrük dəyərinin müəyyən edilməsi (gömrük dəyərləndirilməsi) sistemi beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərə (1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinə, GATT-ın VII maddəsinin Tətbiq edilməsinə dair Razılaşmaya və onun əlavələrinə) əsaslanır və gömrük ərazisinə gətirilən mallara şamil edilir.

7.2. Gömrük tarifinin tətbiqi məqsədi ilə malların gömrük dəyərləndirilməsi qaydaları Gömrük Məcəlləsinə uyğun olaraq bu Qanunla müəyyən edilir.

7.3. Məlumat daşıyıcısı vasitələrinin gömrük dəyərləndirilməsi qaydalarını bu Qanunun müddəaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 8. **Malın gömrük dəyərinin bəyan edilməsi**

8.1. Mal gömrük sərhədindən keçirilərkən, gömrük dəyəri bəyannaməçi tərəfindən Azərbaycan Respublikasının gömrük orqanına (bundan sonra - gömrük orqanı) bəyan edilir.

8.2. Gömrük sərhədindən keçirilən malların bəyan edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

8.3. Gömrük dəyərinin bəyannaməçi tərəfindən müəyyən edilməsi bu Qanunda nəzərdə tutulmuş üsullara uyğun həyata keçirilir.

8.4. Gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyünə gömrük orqanı nəzarət edir.

Maddə 9. **Məlumatın məxfiliyinin qorunması**

9.1. Gömrük orqanının malın gömrük dəyəri bəyan edilərkən təqdim edilmiş məxfi və konfidensial məlumatlardan gömrük dəyərləndirilməsinin məqsədləri üçün istifadə etmək hüququ vardır. Məhkəmə qərarının qəbul edildiyi hallar istisna olmaqla, məlumatı təqdim edən dövlət orqanının və ya şəxsin icazəsi olmadan bu məlumat, digər dövlət orqanları da daxil olmaqla, üçüncü şəxsə verilə bilməz.

9.2. Dövlət və ya kommersiya sirrinin, yaxud qanunla qorunan digər konfidensial məlumatların yayılmasına görə gömrük orqanının vəzifəli şəxsləri qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 10. **Bəyannaməçinin hüquq və vəzifələri**

10.1. Bəyannaməçi tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyəti müəyyən oluna bilən və sənədlərlə təsdiq edilmiş məlumatlara əsaslanmalıdır.

10.2. Bəyan edilmiş malın gömrük dəyərini dəqiqləşdirmək zərurəti yarandıqda, bəyannaməçi yarana biləcək gömrük borcunun ödənilməsi üçün Gömrük Məcəlləsində nəzərdə tutulan təminat növlərindən istifadə etməklə, bəyan edilən malın istifadə üçün ona verilməsi barədə gömrük orqanına müraciət edə bilər.

Maddə 11. **Gömrük orqanının hüquq və vəzifələri**

11.1. Gömrük orqanının gömrük dəyərləndirilməsi məqsədi ilə ona təqdim edilən hər hansı məlumatın, sənədin və ya bəyannamənin düzgünlüyünü araşdırmaq hüququ vardır.

11.2. Aparılmış yoxlama, gömrük auditi və ya araşdırma nəticəsində dəyərləndirmənin bu Qanuna uyğun olmadığı, yaxud digər səbəblərdən düzgün olmadığı qənaətinə gəldikdə, gömrük orqanının vəzifəli şəxsi bu Qanunun tələbləri nəzərə alınmaqla gömrük dəyərinə müvafiq düzəlişlər edilməsi üçün bəyannaməçiyə yazılı bildiriş təqdim edir. Həmin bildirişdə gömrük dəyərinə təklif olunan düzəlişlər göstərilməli və onların edilməsi zərurəti əsaslandırılmalıdır.

11.3. Bəyannaməçi bu Qanunun 11.2-ci maddəsinə uyğun olaraq ona təqdim edilmiş bildirişdə göstərilən gömrük dəyərinə təklif olunan düzəlişlə razılaşmadıqda, yuxarı gömrük orqanına və (və ya) məhkəməyə müraciət edə bilər. Yuxarı gömrük orqanı və ya məhkəmə həmin müraciətə ən geci 10 (on) gün müddətində baxır. Bu barədə müraciətə baxılma müddətində dəbbə pulu hesablanmır.

11.4. Yuxarı gömrük orqanı və ya məhkəmə bəyannaməçinin müəyyən etdiyi gömrük dəyərini düzgün hesab etdikdə, malların saxlancı ilə bağlı xərclər bu Qanunun 11.2-ci maddəsinə əsasən gömrük dəyərinə düzəlişlər təklif etmiş vəzifəli şəxsdən tutulur və həmin vəzifəli şəxs intizam məsuliyyətinə cəlb olunur.

*Fəsil 3*
**Gömrük tarifinin tətbiqi məqsədi ilə malların gömrük dəyərləndirilməsi**

Maddə 12. **Gömrük dəyərinin müəyyən edilməsi üsulları**

12.1. Gömrük ərazisinə gətirilən malların gömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:
12.1.1. malların sövdələşmə qiyməti ilə;
12.1.2. eyni malların sövdələşmə qiyməti ilə;
12.1.3. eynicinsli malların sövdələşmə qiyməti ilə;
12.1.4. dəyərin çıxılması üsulu ilə;
12.1.5. dəyərin toplanması üsulu ilə;
12.1.6. ehtiyat üsulu ilə.

12.2. Malların sövdələşmə qiyməti ilə dəyərləndirilməsi gömrük dəyərinin müəyyən edilməsinin əsas üsuludur. Əsas üsuldan istifadə etmək mümkün olmadıqda, bu Qanunun 12.1-ci maddəsində göstərilən üsullardan hər biri ardıcıl olaraq tətbiq edilir. Bu zaman hər bir sonrakı üsul gömrük dəyərini əvvəlki üsulla təyin etmək mümkün olmadıqda tətbiq edilir.

12.3. Bəyannaməçinin seçimi əsasında dəyərin çıxılması üsulu və dəyərin toplanması üsulu istənilən ardıcıllıqla

tətbiq edilir.

Maddə 13. **Malların sövdələşmə qiyməti üsulu**

13.1. Gömrük ərazisinə gətirilən malların gömrük dəyəri, bu Qanunun 13.2-ci maddəsinə müvafiq qiymət tənzimlənməsi aparılmaqla, Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymət sövdələşmə qiyməti hesab olunur, bu şərtlə ki:

13.1.1. alıcının dəyərləndirilən mallara dair sərəncam və ya istifadə hüququna məhdudiyyətlər nəzərdə tutulmasın (qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlər, malların təkrar satıla biləcəyi coğrafi ərazi məhdudiyyətləri, malların dəyərinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər istisna olmaqla);

13.1.2. satış və ya malların qiyməti həmin mallara münasibətdə dəyəri müəyyən edilə bilməyən hər hansı şərt və öhdəliklərdən asılı olmasın;

13.1.3. alıcı tərəfindən mallara dair sərəncam verilməsindən və ya onların istifadəsindən satıcı birbaşa və ya dolayı yolla mənfəət əldə etməsin, əgər bu Qanunun 13.2-ci maddəsinə müvafiq qiymət tənzimlənməsinin aparılması mümkün deyilsə;

13.1.4. bu Qanunun 13.1.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, malların alıcısı və satıcısı əlaqəli şəxslər olmasınlar;

13.1.5. alıcı ilə satıcı əlaqəli şəxslər olduğu halda, onlar arasındakı münasibətlər mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə təsir etməsin və ya idxalatçı malların sövdələşmə qiymətinin bu Qanunun 13.7-ci maddəsinin tələblərinə cavab verdiyini sübut etsin.

13.2. Malların gömrük dəyəri malların sövdələşmə qiyməti üsulu ilə müəyyənləşdirilərkən, mallar üçün faktiki olaraq ödənilmiş və ya ödənilməli olan qiymətə aşağıdakılar əlavə edilir:

13.2.1. alıcı tərəfindən çəkilmiş, lakin mallara görə faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmiş aşağıdakı xərclər:

13.2.1.1. alıcı tərəfindən malların satın alınması ilə bağlı onu təmsil edən nümayəndəsinə malın alınması ilə əlaqədar təmsilçilik xidmətinə görə ödənilmiş və ya ödənilməli xərclər istisna olmaqla, digər komisyon və broker mükafatlandırılmaları üzrə xərclər;

13.2.1.2. idxal edilmiş malların gömrük məqsədləri üçün bir hissəsi hesab edilən konteynerlərin dəyəri;

13.2.1.3. qablaşdırma materiallarının və qablaşdırma ilə əlaqədar işlərin dəyəri daxil olmaqla, alıcının çəkdiyi qablaşdırma xərcləri;

13.2.2. idxal edilən malların istehsalı və ixrac üçün satılması məqsədi ilə alıcı tərəfindən satıcıya birbaşa və ya dolayısı ilə pulsuz və ya aşağı qiymətlə verilmiş aşağıdakı hər hansı malın və xidmətin faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmiş dəyəri:

13.2.2.1. idxal edilən malların tərkib hissəsi olan materialların, komplektləşdirici hissələrin və digər məmulatların dəyəri;

13.2.2.2. idxal edilən malların istehsalında istifadə edilmiş alətlərin, ştampların, qəliblərin və digər analoji ləvazimatların dəyəri;

13.2.2.3. idxal edilən malların istehsalında sərf edilmiş sürtgü yağları, yanacaq və digər materialların dəyəri;

13.2.2.4. gömrük ərazisindən kənarda həyata keçirilmiş və idxal edilən malların istehsalı üçün zəruri olan layihələndirmə, mühəndis, təcrübi-konstruktor, bədii tərtibat, çertyoj və eskiz işlərinin dəyəri;

13.2.3. patentlər, ticarət nişanları və müəlliflik hüquqları üçün ödənişlər də daxil olmaqla, dəyərləndirilən malların satışı ilə əlaqədar alıcının birbaşa və ya dolayısı ilə ödəməli olduğu royalti və lisenziya haqqı, əgər bunlar faktiki olaraq ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmişdirsə;

13.2.4. alıcı tərəfindən mallar barədə sərəncam verilməsindən və ya onların istifadəsindən satıcıya birbaşa və ya dolayısı ilə çatan və ya çatmalı olan hər hansı gəlir hissəsinin dəyəri;

13.2.5. idxal olunan malların sığorta xərcləri, həmçinin hava və dəniz limanınadək, yaxud gömrük ərazisinə daxil olduğu digər hər hansı yerədək nəqliyyat xərcləri, həmin yerədək malın yüklənmə və boşaldılma xərcləri.

13.3. Mallar üçün ödənilmiş və ya ödənilməli olan qiymətdən ayrı müəyyənləşdirilmiş aşağıdakı xərclər gömrük dəyərinə daxil edilmir:

13.3.1. sənaye qurğuları, maşın və avadanlıq kimi mallar idxal edildikdən sonra həmin mallarla əlaqədar tikinti-inşaat, yığılma, quraşdırma, istismar və texniki yardım xərcləri;

13.3.2. malların gömrük ərazisində daşınması ilə əlaqədar yaranan əsaslandırılmış xərclər;

13.3.3. gömrük ərazisində ödənilməli olan rüsum və digər ödənişlər;

13.3.4. aşağıdakı şərtlər daxilində malın alınması ilə əlaqədar maliyyələşmə razılaşması çərçivəsində alıcının faiz ödəmələri:

13.3.4.1. maliyyələşmə razılaşması yazılı formada bağlanmalıdır;

13.3.4.2. gömrük orqanı tələb etdikdə maliyyələşmə razılaşması çərçivəsində tətbiq edilən faiz dərəcəsi səviyyəsinin maliyyələşmənin təmin edildiyi ölkədə və həmin vaxtda belə sövdələşmələr üçün mövcud olan səviyyədən artıq olmadığını alıcı sübut etməlidir.

13.4. İdxal olunan malların gömrük rəsmiləşdirilməsi başa çatmamışdan əvvəl onlarda itkilər və ya qüsurlar aşkar edilərsə, sövdələşmə qiymətinə müvafiq düzəlişlər edilir.

13.5. Mallara dair bəyannamənin təsdiq edildiyi gündən 1 (bir) il müddətində idxalatçı malların qüsurlu olması ilə əlaqədar sövdələşmə qiymətinə düzəlişlər etmək tələbini irəli sürdükdə, həmin qiymətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda düzəlişlər edilir.

13.6. Alıcı və satıcının əlaqəli şəxslər olması faktı özü-özlüyündə malların sövdələşmə qiymətinin gömrük orqanının vəzifəli şəxsi tərəfindən qəbul edilməməsi üçün əsas deyil. Bu faktın qiymətə təsir etmədiyi hallarda malların sövdələşmə qiyməti gömrük orqanının vəzifəli şəxsi tərəfindən qəbul edilir. Lakin gömrük orqanının vəzifəli şəxsi alıcı və satıcının əlaqəli şəxslər olmasının mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə təsir etdiyi qənaətinə gələrsə,

əsaslandırılmış iradını yazılı surətdə idxalatçıya bildirməli və həmin əlaqələrin sövdələşmə qiymətinə təsir etmədiyini və ya bu Qanunun 13.7-ci maddəsinə uyğun olaraq, sövdələşmə dəyərinin məqbul hesab edildiyini sübut etməsi üçün idxalatçıya şərait yaratmalıdır.

13.7. Əlaqəli şəxslər arasında sövdələşmə qiymətinin məqbul hesab edilməsi üçün, bu qiymətin eyni vaxtda və ya təqribən eyni vaxtda həyata keçirilən sövdələşmələr üzrə aşağıdakılardan birinə yaxın olduğu idxalatçı tərəfindən sübut edilməlidir:

13.7.1. eyni və ya eynicinsli malların Azərbaycan Respublikasına ixrac edilməsi üçün əlaqəli olmayan şəxslər arasında satış məqsədi ilə sövdələşmə qiymətinə;

13.7.2. eyni və ya eynicinsli malların bu Qanunun 16-cı maddəsinə uyğun olaraq müəyyən edilən çıxılmış dəyərinə;

13.7.3. eyni və ya eynicinsli malların bu Qanunun 17-ci maddəsinə uyğun olaraq müəyyən edilən toplanmış dəyərinə.

13.8. Bu Qanunun 13.7-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edilərkən, aşağıdakılar nəzərə alınmalıdır:

13.8.1. şəxslər arasındakı ticarət əməliyyatlarının səviyyəsindəki fərqlər;

13.8.2. bu Qanunun 13.2-ci maddəsində göstərilənlərdə olan fərqlər;

13.8.3. alıcı və satıcı əlaqəli şəxslər olduğu halda satıcının çəkdiyi xərclərlə onlar əlaqəli şəxslər olmadığı hallarla müqayisədə çəkilən xərclər arasındakı fərqlər.

13.9. Bu Qanunun 13.8.1-ci - 13.8.3-cü maddələrində nəzərdə tutulan məlumatlardan bəyannaməçinin təşəbbüsü ilə və yalnız müqayisə məqsədi üçün istifadə olunur.

Maddə 14. **Eyni malların sövdələşmə qiyməti**

14.1. Malların gömrük dəyərini bu Qanunun 13-cü maddəsində göstərilən qaydada müəyyənləşdirmək mümkün olmadıqda, dəyərləndirilən mallarla eyni və ya təqribən eyni vaxtda Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan eyni malların sövdələşmə qiyməti qəbul edilir.

14.2. Malların gömrük dəyəri bu maddəyə əsasən müəyyən edilərkən, dəyərləndirilən mallarla eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satılan eyni malların sövdələşmə qiymətindən istifadə olunur.

14.3. Eyni malların bu Qanunun 14.2-ci maddəsində göstərildiyi kimi eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satışı müəyyən edilmədikdə, bu Qanunun 14.4-cü və 14.5-ci maddələri nəzərə alınmaqla aşağıdakı şərtlərdən birinə cavab verən eyni malların satışının sövdələşmə qiymətindən istifadə olunur:

14.3.1. eyni kommersiya səviyyəsində, lakin dəyərləndirilən malların satıldığı miqdardan fərqli miqdarda satış;

14.3.2. fərqli kommersiya səviyyəsində, lakin dəyərləndirilən malların satıldığı eyni və ya təqribən eyni miqdarda satış;

14.3.3. fərqli kommersiya səviyyəsində və fərqli miqdarda satış.

14.4. Bu Qanunun 14.3-cü maddəsi tətbiq edilərkən, kommersiya və (və ya) miqdar səviyyəsindəki fərqlər nəzərə alınmaqla, eyni malların sövdələşmə qiymətinə müvafiq düzəlişlər edilir.

14.5. Bu Qanunun 14.4-cü maddəsində göstərilən düzəlişlər, malların dəyərinin aşağı düşməsi və ya yüksəlməsi ilə nəticələnməsindən asılı olmayaraq, müvafiq sübutlarla əsaslandırılmalıdır.

14.6. Bu Qanunun 13.2.5-ci maddəsində göstərilən, idxal olunan və eyni mallar üçün çəkilmiş xərclərdə məsafədən və nəqliyyat vasitəsinin növündən irəli gələn əhəmiyyətli fərqləri nəzərə almaq məqsədi ilə sövdələşmə qiymətində müvafiq düzəlişlər aparılır.

14.7. Dəyərləndirilən mallarla eyni və ya təqribən eyni vaxtda Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan eyni mallarla əlaqədar bu Qanunun 14.1- 14.6-cı maddələrində göstərilən tələblərə cavab verən iki və ya daha çox sövdələşmə dəyəri olduğu hallarda, dəyərləndirilən malların gömrük dəyəri belə sövdələşmə dəyərlərinin ən aşağı olanı əsasında müəyyənləşdirilir.

Maddə 15. **Eynicinsli malların sövdələşmə qiyməti**

15.1. Malların gömrük dəyərini bu Qanunun 13-cü və 14-cü maddələrində göstərilən qaydada müəyyənləşdirmək mümkün olmadıqda, dəyərləndirilən mallarla eyni və təqribən eyni vaxtda Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan eynicinsli malların sövdələşmə qiyməti qəbul edilir.

15.2. Malların gömrük dəyəri eynicinsli malların sövdələşmə qiyməti üsulundan istifadə olunmaqla müəyyən edilərkən, bu Qanunun 14.2–14.7-ci maddələrinin müddəaları tətbiq edilir.

Maddə 16. **Çıxılmış dəyər**

16.1. Malların gömrük dəyərini bu Qanunun 13–15-ci maddələrində göstərilən qaydada müəyyənləşdirmək mümkün olmadıqda, gömrük ərazisinə idxal edilən malların gömrük dəyəri çıxılmış (deduktiv) dəyər üsulu ilə müəyyənləşdirilir. Bəyannaməçinin seçimi əsasında bu Qanunun 16-cı və 17-ci maddələri istənilən ardıcıllıqla tətbiq edilir.

16.2. Dəyərləndirilən malın çıxılmış dəyərini müəyyən edərkən, bu mallarla eyni və ya təqribən eyni vaxtda idxal olunmuş və ən böyük həcmdə, idxal olunduğu vəziyyətdə və əlaqəli olmayan şəxsə satılmış eyni və ya eynicinsli malların bir vahidinin Azərbaycan Respublikasındakı satış qiyməti müqayisə üçün əsas kimi götürülür və həmin qiymətdən aşağıdakı məbləğlər çıxılır:

16.2.1. idxal edilmiş eyni sinif və ya növ malların gömrük ərazisində satışı ilə əlaqədar ödənilən və ya ödənilməli olan komissiya haqları və ya həmin malların satışı ilə əlaqədar gəlir götürmək və ümumi xərcləri ödəmək üçün adətən edilən əlavələr;

16.2.2. gömrük ərazisində daşınma, yüklənmə, boşaldılma işlərinə və sığortaya adətən sərf olunan xərclər;

16.2.3. malların idxalı və satışı ilə əlaqədar gömrük ərazisində ödənilməli olan gömrük rüsumlarının, vergilərin və

digər ödənişlərin məbləği.

16.3. Dəyərləndirilən malların idxalı ilə eyni və ya təqribən eyni vaxtda bu Qanunun 16.2-ci maddəsində nəzərdə tutulan satış həyata keçirilməmişdirsə, gömrük dəyəri idxal olunan mallarla eyni və ya eynicinsli malların gömrük ərazisinə 90 (doxsan) gündən gec olmamaq şərtilə ən yaxın vaxtda satıldığı satış qiymətinə əsasən müəyyən olunur.

16.4. Dəyərləndirilən mallarla eyni və ya təqribən eyni vaxtda, eyni və ya eynicinsli malların gömrük ərazisində idxal olunduğu vəziyyətdə satışı olmadıqda, idxalatçının xahişi ilə eyni və ya təqribən eyni vaxtda idxal olunmuş və ən böyük həcmdə, emal olunmuş vəziyyətdə və əlaqəli olmayan şəxsə satılmış eyni və ya eynicinsli malların bir vahidinin Azərbaycan Respublikasında satış qiyməti əsas götürülür. Bu halda, dəyərləndirilən malların gömrük ərazisində sonradan yığılması, qablaşdırılması və növbəti emalı ilə əlaqədar xərclər, həmçinin bu Qanunun 16.2.1-ci - 16.2.3-cü maddələrində nəzərdə tutulan məbləğlər həmin qiymətdən çıxılır.

16.5. İdxalatçı tərəfindən təqdim edilən məlumatlarda uyğunsuzluq aşkar edildikdə, gömrük orqanının rəyinə əsasən mənfəətin və ümumi xərclərin məbləği təqdim olunan məlumatlardan fərqli məlumatlara əsasən müəyyən olunur.

Maddə 17. **Toplanmış dəyər**

17.1. İdxal edilən malların gömrük dəyərini bu Qanunun 13–16-cı maddələrinə əsasən müəyyənləşdirmək mümkün olmadıqda, malların gömrük dəyəri toplanmış dəyər kimi müəyyənləşdirilir.

17.2. Malların toplanmış dəyəri aşağıdakı məbləğlərin toplanması yolu ilə hesablanır:

17.2.1. idxal edilən malların hazırlanmasında istifadə edilən materiallara, həmin malların istehsalına və ya emalına çəkilən xərclər və ya bunların dəyəri;

17.2.2. Azərbaycan Respublikasına ixrac etmək məqsədi ilə ixrac ölkəsində istehsalçılar tərəfindən hazırlanan və dəyərləndirilən mallarla eyni sinif və ya növdən olan malların satışı zamanı adətən nəzərə alınan mənfəətə və ümumi xərclərə bərabər mənfəət və ümumi xərclərin həcmi;

17.2.3. idxal olunan malların sığorta xərcləri, həmçinin hava və dəniz limanınadək, yaxud gömrük ərazisinə daxil olduğu digər yerədək nəqliyyat xərcləri, həmin yerədək malın yüklənmə, boşaldılma xərcləri.

17.3. Azərbaycan Respublikasının rezidenti olmayan şəxsdən toplanmış dəyərin müəyyən edilməsi üçün hesabat sənədləri tələb edilə bilməz. Lakin gömrük dəyərinin bu maddənin tələblərinə uyğun olaraq müəyyən edilməsi üçün gömrük orqanına malların istehsalçısı tərəfindən təqdim edilən məlumatlar istehsalçının razılığı ilə və müvafiq ölkənin aidiyyəti orqanlarına əvvəlcədən bildirişin verilməsi və həmin orqanların araşdırmaya etiraz etməməsi şərtilə, həmin ölkədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən yoxlanıla bilər.

Maddə 18. **Ehtiyat üsul**

18.1. İdxal olunan malların gömrük dəyərini bu Qanunun 13–17-ci maddələrinə əsasən müəyyənləşdirmək mümkün olmadıqda, gömrük dəyəri bu Qanunun 7.1-ci maddəsinə uyğun olaraq, beynəlxalq təcrübədə qəbul edilmiş ümumi prinsiplərə, habelə bu Qanunun gömrük dəyərləndirilməsinə dair müddəalarına uyğun vasitələrdən istifadə etməklə və gömrük ərazisində mövcud olan məlumatlar əsasında müəyyən edilir.

18.2. Bu Qanunun 18.1-ci maddəsinə müvafiq olaraq malların gömrük dəyəri aşağıdakılar əsasında müəyyən edilə bilməz:

18.2.1. gömrük ərazisində istehsal edilən malların həmin ərazidəki satış qiyməti;

18.2.2. müqayisə üçün seçilən iki alternativ dəyərdən gömrük məqsədləri üçün ən yüksək olanının qəbul edilməsini nəzərdə tutan sistem;

18.2.3. malların ixrac ölkəsinin daxili bazarındakı qiyməti;

18.2.4. bu Qanunun 17-ci maddəsinə uyğun olaraq eyni və ya eynicinsli mallar üçün müəyyənləşdirilmiş xərclərdən fərqli istehsal xərcləri;

18.2.5. gömrük ərazisindən fərqli hər hansı ölkəyə ixrac üçün nəzərdə tutulan malların qiyməti;

18.2.6. minimum gömrük dəyəri;

18.2.7. kortəbii müəyyən edilən və ya saxta dəyərlər.

18.3. İdxalatçı tələb etdiyi halda, o, gömrük orqanları tərəfindən bu Qanunun 18.1-ci maddəsinə əsasən müəyyən edilmiş gömrük dəyəri və bu dəyərin müəyyən edilməsi üçün istifadə olunan üsul barədə yazılı formada məlumatlandırılmalıdır.

*Fəsil 4*

**Gömrük rüsumları üzrə güzəştlər**

Maddə 19. **Tarif güzəştləri və preferensiyaları**

19.1. Tarif güzəştləri və preferensiyaları gömrük sərhədindən keçirilən mallar üzrə gömrük rüsumundan azadetmə və gömrük rüsumu dərəcələrinin aşağı salınması, malın preferensial şərtlərlə gətirilməsi üçün tarif kvotaları şəklində verilən güzəştlərdir.

19.2. Mallar üzrə tarif güzəştlərinin verilməsi halları və qaydaları Gömrük Məcəlləsinə, bu Qanuna və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

19.3. İstehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etmək məqsədi ilə istehsal təyinatlı xammalın və müasir texnologiyanı təmin edən avadanlığın idxalına konkret dövr *(bu Qanunun 20.0.17-ci və 20.0.19-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)* üçün nəzərdə tutulan tarif güzəştləri tətbiq edə bilər. [3]

19.4. Mallar üzrə tarif preferensiyaları qanunvericilikdə və Azərbaycan Respublikasının xarici ölkələrlə və ya beynəlxalq təşkilatlarla bağladığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda həmin ölkələrə, yaxud beynəlxalq

təşkilatın üzv ölkələrinə münasibətdə qarşılıqlı və ya birtərəfli qaydada tətbiq edilir.

19.5. Mallar üzrə tarif güzəştləri və preferensiyaları bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, fərdi xarakter daşıya bilməz:

19.6. Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 20. **Gömrük rüsumlarından azad etmə**

20.0. Aşağıdakılar gömrük rüsumlarından azad edilirlər:

20.0.1. yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün zəruri olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq, dərman vasitələri və digər əmlak;

20.0.2. dənizdə *balıq və digər su bioresurslarının ovunu həyata keçirən* Azərbaycan Respublikası gəmilərinin və Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək üçün gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq, dərman vasitələri və digər əmlak, habelə həmin gəmilərdə gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;[4]

20.0.3. xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər qeyri-rezidentlər üçün Gömrük Məcəlləsində müəyyən edilmiş gömrük güzəştləri çərçivəsində gömrük sərhədindən keçirilən mallar;

20.0.4. gömrük ərazisindən çıxarılan və bu əraziyə gətirilən Azərbaycan Respublikasının milli valyutası, xarici valyuta və qiymətli kağızlar;

20.0.5. qanunla müəyyən edilmiş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

20.0.6. yardım yükü kimi gətirilən, təbii fəlakət zonalarında zərərçəkmiş əhaliyə yardım göstərilməsi üçün göndərilən ərzaq məhsulları, mallar və nəqliyyat vasitələri, habelə müvafiq orqanların təbii fəlakətin nəticələrinin ləğvi ilə məşğul olan şəxsi heyəti üçün nəzərdə tutulmuş avadanlıq, xüsusi nəqliyyat vasitələri, ehtiyat hissələri, şəxsi əşyalar və digər mallar, habelə məktəblər, məktəbəqədər təhsil müəssisələri və müalicə ocaqları üçün pulsuz dərs vəsaitləri;

20.0.7. texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyəçilik məqsədi ilə dövlətlərin və ya beynəlxalq təşkilatların xətti ilə gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan mallar, habelə qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) digər maddi yardımlar;

20.0.8. üçüncü ölkələr üçün nəzərdə tutulan və gömrük ərazisindən gömrük nəzarəti ilə tranzit xüsusi gömrük proseduru altında keçən mallar;

20.0.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;

20.0.10. gömrük ərazisinə qaytarılan milli mədəniyyət sərvətləri;

20.0.11. yığma idman komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı və malları;

20.0.12. əcnəbi əməkçi miqrant Azərbaycan Respublikasında, Azərbaycan Respublikasının vətəndaşı olan əməkçi miqrant xarici ölkədə əmək fəaliyyətinə başlamaq və əmək fəaliyyətini başa vurduqdan sonra qayıtmaq üçün gömrük sərhədini keçərkən onun şəxsi əşyaları, məişət avadanlıqları, əmək fəaliyyəti üçün zəruri olan alətlər;

20.0.13. mallar (aksizli mallar istisna olmaqla) gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edildikdə, habelə gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar xüsusi iqtisadi zonadan gömrük ərazisi xaricinə ixrac edildikdə;

20.0.14. xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar gömrük ərazisi xaricinə ixrac edildikdə, xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar təmir, yekun-tamamlama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə gömrük ərazisinə müvəqqəti idxal edildikdə;

20.0.15. gömrük ərazisində mallar xüsusi iqtisadi zonalar arasında idxal və ixrac edildikdə;

20.0.16. Gömrük Məcəlləsi ilə müəyyən edilmiş müvafiq gömrük prosedurlarına əsasən gömrük rüsumundan azad və ya qismən azad olunmuş mallar;

*20.0.17. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;*

*20.0.18. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;*

*20.0.19. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 10 il müddətinə;*[5]

*20.0.20. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 10 il müddətinə;*[6]

*20.0.21. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər*

*partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin idxalı – 2021-ci il oktyabrın 15-dən 5 il müddətinə.*[7]

~~*20.0.21. Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) təsdiqedici sənəd əldə edən həmin oyunlarda iştirak edən və ya oyunların təşkilinə və ya keçirilməsinə cəlb olunmuş şəxslər tərəfindən həmin oyunlarla bağlı malların idxalı.*~~[8]

*Fəsil 5*

**Yekun müddəalar**

Maddə 21. **Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu Qanunla müəyyən edilmiş normalardan fərqli normalar olduqda, beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar tətbiq edilir.

Maddə 22. **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Maddə 23. **Qanunun qüvvəyə minməsi**

23.1. Bu Qanun dərc edildiyi gündən 90 gün sonra qüvvəyə minir.

23.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının 1995-ci il 20 iyun tarixli 1064 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, 22, maddə 352; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 12, maddə 742; 1999, 4, maddə 225; 2001, 3, maddələr 145, 151, 5, maddələr 296, 299; 2009, 2, maddə 57, 12, maddə 967; 2010, 8, maddə 712; 2011, 4, maddə 256) bu Qanun qüvvəyə mindiyi gündən ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2013-cü il
687-IVQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 18 dekabr 2015-ci il tarixli **54-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 28 yanvar 2016-cı il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 21**)
2. 19 yanvar 2016-cı il tarixli **106-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 fevral 2016-cı il, 39 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, I kitab, maddə 206**)
3. 6 may 2016-cı il tarixli **225-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 7 iyun 2016-cı il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 972**)
4. 1 fevral 2017-ci il tarixli **518-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 mart 2017-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 340**)
5. 9 aprel 2019-cu il tarixli **1560-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 may 2019-cu il, 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 802**) *(Bu Qanun 2019-cu il martın 1-dən 2021-ci il avqustun 1-dək qüvvədədir)*
6. 30 sentyabr 2021-ci il tarixli **379-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 oktyabr 2021-ci il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1091,** *Bu Qanun 2021-ci il mayın 1-dən tətbiq edilir.*)
7. 24 dekabr 2021-ci il tarixli **443-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 yanvar 2022-ci il, 6, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 8**)
8. 27 dekabr 2022-ci il tarixli nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 30 dekabr 2022-ci il, "Azərbaycan" qəzeti, 31 dekabr 2022-ci il, 288**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 1 fevral 2017-ci il tarixli **518-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 mart 2017-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 340**) ilə 6.2-ci, 6.3-cü və 6.4-cü maddələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6.2. Xüsusi rüsumlar aşağıdakı hallarda tətbiq edilir:~~

~~6.2.1. mallar gömrük ərazisinə eyni malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildikdə, müdafiə tədbiri kimi;~~

~~6.2.2. digər dövlətlərin və ya onların ittifaqlarının Azərbaycan Respublikasının maraqlarına toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.~~

~~6.3. Antidempinq rüsumları idxal olunan malların qiyməti gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı~~

~~olduqda və belə bir idxal eyni malların yerli istehsalçılarına ziyan vurduqda və ya ziyan vurmaq təhlükəsi yaratdıqda, Azərbaycan Respublikasında onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneə törətdikdə tətbiq edilir.~~

~~6.4. Kompensasiya rüsumları gömrük ərazisinə gətirilən malların ixrac ölkəsində istehsalı və ya həmin ölkədən ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə idxal bu cür malların yerli istehsalçılarına ziyan vurduqda və ya ziyan vurmaq təhlükəsi yaratdıqda, bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneə törətdikdə tətbiq edilir.~~

[2] 1 fevral 2017-ci il tarixli **518-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 mart 2017-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 340**) ilə 6.5-ci maddədə "**müvafiq qanunla**" sözləri **"Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə**" sözləri ilə əvəz edilmişdir.

[3] 19 yanvar 2016-cı il tarixli **106-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 fevral 2016-cı il, 39 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, I kitab, maddə 206**) ilə 19.3-cü maddədə "**dövr**" sözündən sonra **"(bu Qanunun 20.0.17-ci və 20.0.19-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[4] 18 dekabr 2015-ci il tarixli **54-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 28 yanvar 2016-cı il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 21**) ilə 20.0.2-ci maddəsində "**balıq ovlayan**" sözləri "**balıq və digər su bioresurslarının ovunu həyata keçirən**" sözləri ilə əvəz edilmişdir.

[5] 19 yanvar 2016-cı il tarixli **106-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 fevral 2016-cı il, 39 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, I kitab, maddə 206**) ilə 20.0.16-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 20.0.17-ci, 20.0.18-ci və 20.0.19-cu maddələr əlavə edilmişdir.

27 dekabr 2022-ci il tarixli nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 30 dekabr 2022-ci il, "Azərbaycan" qəzeti, 31 dekabr 2022-ci il, 288**) ilə 20.0.19-cu maddəsində "**7**" rəqəmi "**10**" rəqəmləri ilə əvəz edilmişdir.

[6] 6 may 2016-cı il tarixli **225-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 7 iyun 2016-cı il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 972**) ilə 20.0.19-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 20.0.20-ci maddə əlavə edilmişdir.

30 sentyabr 2021-ci il tarixli **379-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 oktyabr 2021-ci il, 223, , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1091,** *Bu Qanun 2021-ci il mayın 1-dən tətbiq edilir.*) ilə 20.0.20-ci maddəsində "**5**" rəqəmi "**10**" rəqəmləri ilə əvəz edilmişdir.

[7] 24 dekabr 2021-ci il tarixli **443-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 yanvar 2022-ci il, 6, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 8**) ilə 20.0.20-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 20.0.21-ci maddə əlavə edilmişdir.

[8] 9 aprel 2019-cu il tarixli **1560-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 may 2019-cu il, 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 802**) ilə 20.0.20-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 20.0.21-ci maddə əlavə edilmişdir. *(Bu Qanun 2019-cu il martın 1-dən 2021-ci il avqustun 1-dək qüvvədədir)*